**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**FİDAN HƏMDULLA QIZI AĞAMALIYEVA**

# ABDULLA ŞAİQİN DRAMATURGİYASI

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru**
**elmi dərəcəsi almaq üçün təqdim olunmuş**
**dissertasiyanın**

## A V T O R E F E R A T I

**B A K I - 2015**

Dissertasiya Bakı Dövlət Universitetinin Klassik Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: *filologiya üzrə elmlər doktoru, professor*
**Qara Mustafa oğlu NAMAZOV**

**Rəsmi opponentlər:** *filologiya üzrə elmlər doktoru, professor* **Abdulla Əsgər oğlu ABASOV**

*filologiya üzrə fəlsəfə doktoru*
**Aygün Ağabağır qızı BAĞIROVA**

**Aparıcı müəssisə: Azərbaycan Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə «_29___» _05__ 2015-ci il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2015-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya şurasının**
**elmi katibi, filologiya üzrə**
**elmlər doktoru, professor: T.H.HÜSEYNOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Azərbaycan ədəbiyyatında öz dəst-xətti ilə seçilən sənətkarlardan biri də Abdulla Şaiqdir. Şairin yaşadığı dövr Azərbaycan xalqının milli oyanışını əks etdirən tarixi bir mərhələdir. Bu dövr həm də Azərbaycan ədəbiyyatı tarixində özünəməxsusluğu ilə seçilən bir mərhələdir. Bəşər tarixinin müxtəlif dövrlərində baş verən ictimai-siyasi hadisələr xalqın mənəvi inkişafına həmişə öz təsirini göstərmişdir. Məlum olduğu kimi, bu tarixi dövr Azərbaycanda savadsızlıq, mövhumat, ictimai həyatdan geri qalma, həm də milli oyanış, mədəniyyətə maraq və s. amillərlə xarakterizə olunur. Xalqın qabaqcıl ziyalılarının əsas vəzifələrindən biri də ölkəni cəhalətdən, savadsızlıqdan qurtarmaq, xalqın maariflənməsinə kömək etməkdən ibarət olmuşdur. Bunun üçün bir çox vasitələrdən istifadə edilmişdir. Ədəbi yaradıcılıq da xalqı savadsızlıqdan qurtarmaq, gənc nəslin təhsil almasına kömək etmək işində mühüm əhəmiyyətə malikdir. A.Şaiqin dram əsərlərinin bu baxımdan əhəmiyyət kəsb etməsi, ədəbiyyatşünasların diqqətindən yayınmamışdır. O, öz dram yaradıcılığı ilə xalq ədəbiyyatının yaranmasını və milli təhsildə ondan istifadənin rolunu yüksək qiymətləndirmişdir. Təsadüfi deyildir ki, A.Şaiqin ilk dramlarının qəhrəmanları uşaqlar üçün doğma olan nağıl obrazlarıdır. A.Şaiq bir ictimai xadim, pedaqoq və sənətkar kimi nağıl obrazlarının milli tərbiyədə böyük rol oynadığını bilərək bu dövrdə Azərbaycan ədəbiyyatında olan boşluğu aradan qaldırdı. Azərbaycan ədəbiyyatı tarixində böyük rol oynamış bu cür şəxsiyyətlər haqqında elmi əsərlərin yazılması günün vacib və aktual məsələlərindən biridir.

A.Şaiqin ədəbi yaradıcılığı, xüsusən də dram yaradıcılığı milli düşüncənin oyanmadığı, elmin, maarifin o qədər də inkişaf etmədiyi, mövhumatın azərbaycanlı ailəsinə təsirinin güclü olduğu zaman kəsiyinə düşmüşdür. A.Şaiq öz dram əsərlərində uşaq dünyagörüşünə yaxın olan nağıl qəhrəmanlarından istifadə edərək onların bədii zövqünün formalaşmasına təsir etmişdir. Onun dövründə məktəb dərs vəsaitlərindən məhrum idi. A.Şaiq öz dövrünün ziyalısı olduğuna görə bu çatışmazlıqları görmüş, onların aradan qaldırılması üçün dərslik, şeir kitabçaları, sadə dramlar yazmağa başlamışdı. Onun maarifçilik və ədəbi fəaliyyətinin əsas məqsədlərindən biri soydaşlarımızın mədəni və intellektual səviyyəsinin artması, təhsilli ziyalılar yetişdirmək arzusundan ibarət olmuşdur. Belə ki, təkcə o dövrün ədəbi mühiti üçün səciyyəvi meyarlarla A. Şaiq yaradıcılığına qiymət vermək olmaz. Bu ədibin fəaliyyətinin müəyyən sahələrini kölgədə qalmasına səbəb ola bilər. Bunun üçün yazıcının həm ictimai, həm də ədəbi fəaliyyəti dərindən öyrənilməli, ona təsir edən fəlsəfi düşüncə, ictimai mühit, tarixi



hadisələr, dövrün nüfuzlu ədibləri və mətbuat orqanlarının materiallarlı da tədqiqata cəlb olunmalıdır.

Məsələn, onun konkret hansı ədəbi cərəyanın nümayəndəsi olduğunu qəti şəkildə söyləmək, onun yaradıcılığında hansı ədəbi metodun hakim olduğunu bir mənali şəkildə göstərmək absurdu. Vaxtı ilə A.Şaiqin yaradıcılığında bir ədəbi cərəyanin qabardılması, sonralar onun tam inkar edilərək əksinin sübuta yetirilməsi üçün calışmalar yazıçının əsərlərindəki bir çox cəhətlərin kölgədə qalmasina səbəb olmuşdur. Qeyd edək ki, ədibin irsində qızıl xətt kimi keçən, kökü xalq ədəbiyyatından gələn romantizm realizm ilə culğalaşır və bu onun dramaturgiyasında daha bariz şəkildə önə çıxır.A.Şaiqin dramaturgiyasını bu səpkidən nəzərdən keçirmək dissertasiyanın aktuallığını artırır. Bundan əvvəlki tədqiqatlarda problemə belə yanaşma olmamış, Şaiqin dramaturgiyası bütövlükdə romantizm və realizm ədəbi mövqeyindən elmi təhlilə cəlb olunmamışdır. Onun dramaturgiyasını təkcə realizm ədəbi cərəyanı əsasında təhlil etmək elmi nəticələri birtərəfli qaydada elmi əsasdan məhrum etmiş, yaxud faktları təhrif etmək imkanı vermiş, yeni tədqiqatların işini düyünə salmışdır. Bundan əvvəlki tədqiqatlarda A.Şaiqin həyatı, fəaliyyəti, yaradıcılığı köhnə metodla – sosializm realizmi metodunun tələbləri əsasında araşdırıldığından bəzən düzgün olmayan nəticələr də əldə olunmuşdur. Bu gün Abdulla Şaiq haqqında yeni tədqiqatların aparılması tələbi onun şəxsiyyətinə və dram yaradıcılığına lazımınca qiymət verməyi aktual edir. Bunun üçün böyük sələflərinin və müasirlərinin yaradıcılığını da nəzərdən keçirtmək məqsədəuyğun olar. Söhbət N.Gəncəvinin, M.F.Axundovun, S.S.Axundovun, A.Səhhətin, C.Məmmədquluzadənin, M.Ə.Sabirin, hətta romantik şairlərin də mənsub olduğu ictimai-ədəbi zəmindən gedir. Bu mühit A.Şaiqin də ədəbi yaradıcılığına sirayət etmişdir. Xüsusilə onun ilkin dram yaradıcılığında romantizm meyllərinin güclü olması mənsub olduğu realist sənətkarlar cəbhəsinə daxil olmaqda maneçilik törətməmişdir. Lakin A.Şaiqin yaradıcılığındakı bu qoşalıq onun əsərlərinin mövzusunun ikincinin xeyrinə tərk edilməsinə səbəb olmuşdur. Bu isə tədqiqatların birtərəfli aparılmasına imkan vermişdir. Yeni ictimai dövr, yeni tədqiqat metodu köhnə mövzuları inhisardan azad edir, yeni baxışların yaranmasına və tədqiqatda fikrin düzgün şərh edilməsinə şərait yaradır. Yeni tədqiqat metodu A.Şaiqi başqa rakursda tanıtmağa imkan verir. Məhz problemə bu baxış bucağından baxdıqda Şaiqin şəxsiyyətinin, fəaliyyətinin və dram yaradıcılığının bu tərzdə öyrənilməsi onu ədəbiyyatşünaslığımızın aktual problemlərindən birinə çevirir. Dissertasiyada A.Şaiqin dövrü, pedaqoji fəaliyyəti və dram yaradıcılığına yeni aspektdə baxılır, dramaturgiyasında yer alan bəzi folklor motivləri üzə çıxarılır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işində əsas məqsəd

A.Şaiqin yaradıcılıq mühitini, ədəbi əlaqələrini və dramaturgiyasını mümkün qədər ətraflı şəkildə araşdırmaq, Şaiqin dramlarını yeni elmi müstəvidə öyrənməkdir. Bunun üçün Şaiqin dramaturgiyasını mərhələlərə bölmək lazım gəlir. Dram yaradıcılığının birinci dövrü dedikdə folklordan istifadə məsələlərini önə çəkmək lazımdır. Bu, Şaiqin dram yaradıcılığının ilkin dövrüdür. Elmi ədəbiyyatda onun bu cür dram əsərlərinə nağıl-pyeslər də deyilir. Belə əsərlərdə müəllifin qəhrəmanlarının folklor düşüncəsi ilə bağlılığı üzə çıxarılır. Bu cür dramların təhlil olunması ilə A.Şaiqin də folklora yaxınlığı, folklordan istifadənin metodları araşdırılır. Onun ilk dram əsərlərinin şifahi ədəbiyyatın hansı janrına yaxın olması, süjet, motiv və s. əlaqələri tədqiqata kömək edən şifahi mənbələrdir. Bundan başqa, tədqiqatda elmi-nəzəri mənbə olaraq K.Talıbzadənin, B.Nəbiyevin, Ə.Mirəhmədovun, Məmməd Cəfərin, Y.İsmayılovun, Q.Namazovun, Y.Qarayevin, A.Zamanovun, Ə.Məmmədovun və başqalarının əsərlərinə istinad edilmişdir. Araşdırmada A.Şaiqin dram yaradıcılığının ədəbiyyatımızda rolunu və mövqeyini araşdırmaq üçün dissertant aşağıdakı vəzifələri həll etməyə çalışmışdır:

- Şaiqin dram yaradıcılığı haqqında mümkün qədər geniş məlumat vermək;
- Mütəxəssislərin Abdulla Şaiqin dramaturji irsi barədə mülahizələrinə obyektiv münasibət bildirmək;
- Şaiqin klassik ədəbiyyata və Azərbaycan folkloruna bağlılığını təyin etmək;
- Şaiqin sənətkarlığı, dramlarında folklorun janr, bədii dil və üslub xüsusiyyətləri, ədəbi-bədii təsvir və ifadə vasitələrindən istifadə məsələləri;
- Şaiq dramaturgiyasının nəzəri probleminin folklor və tarixi irsə münasibətinin romantizm və realizm nöqteyi-nəzərindən öyrənilməsi;
- Şaiq haqqında elmi mülahizələrin əhəmiyyətinin araşdırılması;
- Şaiqin dram yaradıcılığının gənc nəslin təlim və tərbiyəsində istifadə olunmasının yeni tarixi şəraitdə mümkünlüyü.

**Tədqiqat obyekti**. Dissertasiya işində başlıca araşdırma obyekti kimi XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının tarixi, ictimai və ədəbi mühiti, bu mühitin yetişdirdiyi sima kimi A.Şaiqin dram yaradıcılığı əsas götürülmüşdür. A.Şaiqin dramaturgiyasının tədqiqi probleminin həllində nəzəri mənbələr də araşdırmaya cəlb olunmuş, yeri gəldikcə onlara istinadlar edilmiş, tənqidi munasibətlər də bildirilmişdir.

**Mövzunun işlənmə dərəcəsi**. Abdulla Şaiqin müəyyən qədər həyatı və yaradıcılığı, xüsusilə uşaq dramaturgiyası, dövrü, mühiti, sənətkarlıq məsələləri, uşaq ədəbiyyatı mütəxəssisi olması, pedaqoji fəaliyyəti, dram yaradıcılığında müxtəlif səhnə əsərlərinin yaradılması və s. XX əsr



ədəbiyyatşünaslığımızın əsas problemlərindən olmuşdur. Bu dövr ədəbiyyatında Şaiqşünaslıq xüsusi bir mərhələdir. Şaiqşünaslıqda bir çox görkəmli alimlər öz elmi fikirlərini söyləmiş, onun ədəbi, elmi, ictimai və s. görüşlərini tədqiq etmişlər. Bunlardan K.Talıbzadə, Ə.Mirəhmədov, Y.Qarayev, Ə.Məmmədov, A.Zamanov, Y.İsmayılov, M.İbrahimovun seçilmiş əsərləri, Ş.Əfəndiyeva, B.Nəbiyev, V.Osmanlı öz monoqrafiyalarını A.Şaiqə və Şaiqlə bağlı problemlərə həsr etmişlər.[1] Son illərdə Abdulla Şaiqlə bağlı, ya da dolayısı ilə bir neçə namizədlik və doktorluq dissertasiyaları, o cümlədən Şamil Vəliyevin «Füyuzat» ədəbi məktəbi», Nazif Qəhrəmanlının «Azərbaycan ədəbiyyatı tarixçiliyi (XIX – XX əsrlər)», Aybəniz Əliyevanın «Azərbaycan romantikləri və türkçülük hərəkatı» adlı doktorluq dissertasiyaları, Şirindil Alışanovun «XX əsr Azərbaycan romantizminin tədqiqi məsələləri», Eyvaz Eminalıyevin «A.Şaiqin «Xatirələrim» əsəri kamil memuar nümunəsi kimi», Cəlal Qasımovun «Abdulla Şaiqin həyat və yaradıcılığı», Vahid Əzizovun «Sabir satiralarında müasirlik», S.Fərzəliyevanın «Abdulla Şaiq və folklor» adlı namizədlik dissertasiyaları və s. müdafiə olunmuşdur.

**Tədqiqatın nəzəri və metodoloji əsasları**. Dissertant tədqiqatda ədəbiyyatşünaslıq elmimizin, xüsusilə XIX və XX əsr ədəbi mühitinin inkişafının tədqiqi ilə bağlı elmi-nəzəri əsərlərə əsaslanır. Dissertasiya tarixi-müqayisəli metodologiya əsasında yazılmış, A.Şaiqin bütün dram əsərləri struktur-semantik təhlil metodu ilə tədqiqata şəlb oıunmuş, onun dramaturji fəaliyyətinin araşdırılmasında ədəbiyyatşünaslığın elmi-nəzəri müddəalarından da istifadə olunmuşdur. Tədqiqatda K.Talıbzadənin, Ə.Mirəhmədovun, Q.Namazovun, Ə.Məmmədovun, Y.Qarayevin, M.Cəfərin və başqalarının fikirləri, mülahizələri nəzərdən keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Sovet dövründə A.Şaiq haqqında çoxlu monoqrafiyalar, tədqiqatlar yazılsa da, bu elmi əsərlər müəyyən qüsurlardan

---

[1] Talıbzadə K. Ədəbi irs və varislər. Bakı: Azərnəşr, 1974; Yenə onun. Sənətkarın şəxsiyyəti. Bakı: Yazıçı, 1978; Yenə onun. Seçilmiş əsərləri. İki cilddə. Bakı: Azərnəşr, 1991; Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı: Maarif, 1983; Yenə onun. Abdulla Şaiq. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1956; Qarayev Y. Tənqid: problemlər, portretlər. Bakı: Azərnəşr, 1976; Yenə onun. Meyar – şəxsiyyətdir. Bakı: Elm, 1988; Yenə onun. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980; Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Elm, 1977; Yenə onun. Abdulla Şaiq. Bakı: Gənclik, 1983; Zamanov A. Abdulla Şaiq. Bakı: Azərbaycan SSR siyasi və elmi bilikləri yayan cəmiyyətin nəşri, 1956; Yenə onun. Əməl dostları. Bakı: Yazıçı, 1979; İsmayılov Y. Abdulla Şaiqin həyatı və bədii yaradıcılığı. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1962; Əfəndizadə Ş., Liylman M. Abdulla Şaiq Talıbzadə. Bakı, 1956; Nəbiyev B. Firidunbəy Köçərli. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1963; Nəbiyev B. Söz ürəkdən gələndə (ədəbi tənqidi məqalələr). Bakı: Yazıçı, 1984; Osmanlı V. Azərbaycan romantikləri. Bakı: Yazıçı, 1985.

azad olmamışdır, çünki A.Şaiqin dram yaradıcılığına, mühitinə, dövrün xüsusiyyətlərinə yanaşma müəyyən tələblər çərçivəsində olmuşdur. Tədqiqatda onu yetişdirən mühitin xüsusiyyətləri, Şaiqin dram yaradıcılığındakı digər sənətkarlarla yaradıcılıq əlaqəsinin forma və tərəfləri, ədəbi yaradıcılıqda öz sələflərinə olan münasibətinin izahı yeni elmi düşüncəyə əsaslanır. Dissertasiyada problemə aşağıdakı yeni elmi yanaşmalar nəzərə çarpır:

- Şaiqin dövrünə, mühitinə, yaradıcılıq əlaqələrinə və s. romantik üslub nöqteyi-nəzərindən qiymət verilir;
- Şaiqin ilkin dramlarının folklorla bağlılığı təhlil edilir;
- Şaiqin dramaturgiyasının tarixi əsasları öyrənilir;
- Şaiqin dram yaradıcılığının əsas mərhələləri, onun üç tipdə olması önə çəkilir;
- Şaiqin dram qəhrəmanlarının səciyyəvi xüsusiyyətləri göstərilir və s.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti**. XX əsrdə yaşamış böyük Azərbaycan yazıçısı, şairi, dramaturqu, pedaqoqu və alimi Abdulla Şaiqin mühitinə, yaradıcılıq əlaqələrinə, müasirlərinə olan münasibətlərinə həsr edilmiş bu dissertasiya işi ədəbiyyat tarixi ilə məşğul olan mütəxəssislər və alimlər üçün dəyərli ola bilər. Dissertasiyadakı elmi mülahizə və nəticələr şaiqşünaslığa işıq saça, Azərbaycan ədəbiyyatı tarixinin A.Şaiqlə bağlı mərhələsinin yazılmasında istifadə edilə,ali məktəblərdə müvafiq kursun tədrisi zamanı elmi-metodiki vəsait kimi tətbiq oluna bilər.

**İşin aprobasiyası**. Dissertasiya işi Bakı Dövlət Universitetinin M.Cəlal Paşayev adına klassik Azərbaycan ədəbiyyatı kafedrasında hazırlanmışdır. Əsərin əsas nəticələri respublikada çap olunan müxtəlif elmi jurnallarda nəşr olunan məqalə və tezislərdə əhatə olunmuşdur.

**Dissertasiyanın quruluşu** «Giriş», üç fəsil, «Nəticə» və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**«Giriş»**də mövzunun aktuallığı, dissertasiyanın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, problemin öyrənilmə mərhələləri, araşdırmanın elmi yenilikləri, nəzəri-metodoloji əsasları, nəzəri və praktik əhəmiyyəti izah olunmuş və işin aprobasiyası öz əksini tapmışdır.

Dissertasiyanın birinci fəsli **«A.Şaiq dramaturgiyasının ideya-bədii qaynaqları»** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. **«Abdulla Şaiq və folklor»** adlanan birinci yarımfəsildə A.Şaiqin ilk dramlarının mövzusunun folklor motivləri ilə bağlılığı məsələsi önə çəkilmişdir.

A.Şaiqin dram yaradıcılığının folklorla bağlılığı uşaqlar üçün əsərlərin



olmamasından, onların belə əsərləri tez qavramasından, azyaşlıların zövqünü folklor mövzuları ilə tərbiyə etmək istəyindən irəli gəlirdi. Bu cəhətdən dramaturqun «Gözəl bahar» pyesi uşaqların əxlaqına, tərbiyəsinə təsir edən ilk bədii əsərdir. Onun 1910-cu ildə qələmə aldığı «Gözəl bahar» pyesi də folklordan qaynaqlanır. Abdulla Şaiqin pyeslərindəki folklorizm şifahi ənənədəki metafizik düşüncənin təsiri ilə folmalaşmışdır. A.Şaiqə görə hər bir şeyin varlığı, əsası vardır. Var olan hər hansı bir əşya, sonda yoxa çevrilə bilir, yoxdan isə heç bir şey törəyə bilmir. Abdulla Şaiqin yaradıcılığına əsaslanaraq demək olar ki, uşaq ədəbiyyatında folklordan istifadənin imkanları 3 cürdür:

1. Şifahi ədəbiyyatdan alınan mövzunu kicik dəyişikliklərlə işləmək;
2. Şifahi xalq yaradıcılığı xəzinəsindən bir neçə mövzu götürüb yeni əsər meydana çıxartmaq;
3. Uşaq ədəbiyyatında xalq yaradıcılığı üslubunda, lakin heç bir folklor nümunəsinə əsaslanmadan yaradılan əsərlər.

«Gözəl bahar» üçpərdəli mənzum pyesinin ilk variantı A.Şaiqin dram yaradıcılığının ilk dövrünə aiddir. Əsər 1910-cu ildə yazılmışdır. Sonradan A.Şaiq bu əsərin üzərində işləmişdir. «Gözəl bahar» alleqorik pyesində Şaiqin tənqid hədəfi çarizm idi. Qış mütləqiyyəti, zülmü, istismarı, Bahar azadlığı, səadəti təmsil edir. Başqa iştirakçılar – fəsillər, ayrı-ayrı təbiət qüvvələri də müəyyən ictimai məna daşıyır.

«Gözəl bahar» əsərini əlyazmadan oxuyan F.Köçərli 14 iyun 1911-ci il tarixli məktubunda A.Şaiqə yazırdı: «Bir pərdədə «Bahar xanım» ünvanında yazdığınız mənzumə bəd deyil. Ondan yaxşı operetta əmələ gələr. Keçən sənə mən Tiflisdə padşahlıq teatrında bunun mislini gördüm, çox xoşuma gəldi. Sizin yazdığınız hekayə dəxi də gözəldir və belə zənn edirəm ki, ondan çox gözəl operetta çıxar. Bu barədə Üzeyir Hacıbəyovla məsləhət ediniz».[1]

Müəllif əsərin personajlarını seçərkən təbiət qüvvələrinə xüsusi yer vermişdir. Məsələn, qış obrazı təbiətin ən soyuq vədəsidir. Boran, Külək, Bulud isə Qışı səciyyələndirir. A.Şaiq Bahar obrazını təbiətin ən füsunkar qızı kimi təqdim edir. Baharı fəsil kimi antropomorflaşdırma obrazın insan kimi düşünülməsindən irəli gəlir. Baharı səciyyələndirən bir neçə başqa obrazlar da pyesə əlavə olunmuşdur. Bunlar Günəş, Su, Torpaq, Qaranquş və Bülbüldür.

A.Şaiqin yaradıcılığında təbiət mövzusu əsas yer tutur. «Gözəl bahar» pyesində təbiəti vəsf etmək və obrazlarla vermək ənənəvi olaraq Şaiqin folklordan bəhrələnməsindən irəli gəlir. Bu, əsərin məzmunundan da hiss olunur. Mövzu etibarilə «Gözəl bahar» pyesi «İdeal və İnsanlıq» pyesinə çox yaxındır. Burada sadəcə olaraq personajların adı dəyişdirilmişdir. Bahar

[1] Talıbzadə K. Abbas Səhhət. Bakı: Azərnəşr, 1985, s. 137.

obrazını İnsanlıq obrazı əvəz etmişdir. Qış isə Şeytan obrazına yaxındır. Bu əsərlərdəki yardımçı obrazlar da bir-birinə uyğundur. Pyes Baharla Qışın mübarizəsinə həsr olunmuşdur. Pyesin mövzusu maraqlı seçilmişdir. Xalq təfəkküründə təbiət qışda ölür, baharda dirilir. Əslində əsər folklor motivləri əsasında yazılmışdır. Buradakı obrazların hamısına insanlar səcdə edirlər.

Əsərdə Boran Qışın oğlu kimi təsvir edilir. O, Günəşi məhv etməyə çalışır. Folklorda kəskin konflikt olmadığından bu əsərdə də mifoloji boyalarla süslənmiş Qışla Baharın mübarizəsində də ciddi konflikt yoxdur. Bunu Qış özü də etiraf edir. O, Baharı özünə düşmən saymır.

Dramaturq Baharla Günəş arasında olan birliyi sübut edən yaradıcı metoda əl atmışdır. Belə ki, Qaranquş baharın müjdəsini dimdiyində bənövşə gətirib Günəşə verir. Xalq təfəkküründə qar altından ilk bənövşənin boynunu bükərək çıxması baharın gəlişini xəbər verməsi kimi simvollaşmışdır. Uşaqları təbiətlə tanış etməyin bədii üsulunu tapan sənətkar səhnəyə Qızılgül, Arı, Zanbaq, Kəpənək, Qərənfil, Bənövşə, Durna, Turac, Qırqovul, Tovuz kimi şəxsləndirilmiş obrazları səhnəyə gətirir. Burada məqsəd onların təbiətdəki özləri haqda uşaqlarda təsəvvür və assosiasiya yaratmaqdır.

Abdulla Şaiqin dram yaradıcılığında folklor düşüncəsindən bol-bol istifadə olunmuşdur. Həm də A.Şaiq ictimai mövzulara meyl edən sənətkardır. O, əsərlərində əzən və əzilənlər sinfini təqdim edir, bir dramaturq kimi əzilənlərin tərəfində durur, əsərlərini oxunaqlı etmək, həm də bədii təsir qüvvəsini gücləndirmək üçün folklor motivlərindən istifadə edir. Onun «İntiqamçı xoruz» pyesi də haqqın, ədalətin aradan çıxmasına, kəndli sinfinin mənafeyinin tapdalanmasına, bir sözlə, ağalar-qullar dünyasının mərhəmətsizliyinə qarşı yazılmışdır. «İntiqamçı xoruz» pyesində kəskin konflikt vardır. Əsər folklor motivləri ilə zəngin olsa da, dramaturq burada da ictimai ziddiyyətlərin baş verməsinin səbəblərinə toxunur. Əsərdə kəndli sinfinin nümayəndəsi Həsənlə fəhlə Aslanı öz şəxsiyyətləri uğrunda mübarizədə birləşdirir. Varlılarla onların arasında ictimai uçurum vardır. A.Şaiq bu uçurumu aradan qaldırmaq, problemi əzilənlərin xeyrinə həll etmək üçün folklor düşüncəsindən istifadə edir. Problemin həllinin bu cür tapılmasına müəllifin yaradıcılığında çox rast gəlirik. Onun «İntiqamçı xoruz» əsərində «inqilabla doğar yeni bir cahan» fikrinə istinad edən M.Ağamirov bu əsərdə inqilabın zəruriliyi qənaətini görmüş, onun ictimai-siyasi baxışlarının mahiyyətini inqilabla bağlamışdır. A.Şaiq bilirdi ki, ağa-nökər münasibətləri, ziddiyyətləri maarifləndirmənin köməyi ilə də həll oluna bilir. Səhnə əsəri də maariflənmənin ən tərbiyəvi üsuludur. Həm də pyes uşaqlar üçün yazıldığından, uşaq dünyasına uyğunlaşdırıldığından konfliktin folklor motivi əsasında həll olunması A.Şaiqin uğurudur. Nağıllardakı əhvalatlar bu pyesdə



təkrar olunur. Həsən yol yoldaşı öz bəyin mehtəri olan oğlanın ağa və bəylərdən qisasını almağa gedir. Əsərin ikinci pərdəsində Həsənin xoruzuna güvənib bəylərdən qisas alması təsvir olunur.

Abdulla Şaiqin uşaqlar üçün yazdığı pyeslərin əksəriyyəti ruscadan təbdil olunmuşdur. Rus ədəbiyyatında uşaqlar üçün yazılmış əsərlər həm də Şaiqin yaradıcılığına uyğun gəldiyi üçün o, bu əsərləri azərbaycanlı balaları üçün yenidən işləmək zərurətini hiss etmişdir. «Danışan kukla» iki pərdəli pyesi də həmin zərurətdən iqtibas edilərək yazılmışdır. Əsər 1913-cü ildə yazılmış, son dəfə makina çapı üzərində işlənmiş və pyesin sonluğu dəyişdirilmişdir. Əsərdə təsvir olunur ki, padşahın qızı xəstəhaldır. Bu xəstəliyin səbəbini heç kim bilmir. Şahzadə xanımı şıltaq, ərköyün böyütmüşlər. Şahzadə xanım danışan kukla istəyir. Bu pyesin mövzusu nağıl motivi əsasında qurulmuşdur. Azərbaycan nağıllarında bu motiv üzrə nağıllar vardır. Şah qızını rəiyyət qızları ilə oynamağa qoymurlar. O da tək qalıb darıxır, öz təkliyinə həmdəm olan danışan kukla həsrətindədir.

Yuxudan oyanan şahzadə xanım yatağının yanında kukla görür. İnanır ki, bu, istədiyi həmin danışan kukladır. Xidmətçi onu başa salır ki, kuklanı danışdırmaq üçün burğusunu burmaq lazımdır. Şahzadə belə edib kukla ilə danışır və danışan kukla tapdığına sevinir. Əvvəlki pyeslərdə olduğu kimi bu pyesdə də dramaturqun əsas qayəsi varlı-yoxsul problemini qabartmaqdır. Göründüyü kimi, Abdulla Şaiq nağıl motivinə ictimai məzmun vermişdir. İnci (danışan kukla) kukla kimi hərəkətsiz qalmaq istəmir, ailəsinin vəziyyətinə ağlayır. O bilir ki, çörəkləri yoxdur, yoxsul olduqlarına görə valideynləri İncini kukla kimi padşah qızına verməyə razılaşmışlar.

Abdulla Şaiqin dram yaradıcılığı pyesdən pyesə püxtələşir. Onun «Eloğlu» pyesi də xalqın xan zülmünə qarşı mübarizəsinin bədii-fantastik inikasıdır. Əsərin baş qəhrəmanı Eloğludur. Əsərdə hadisələr öz inkişaf axarını kəndli Poladın evindəki qədim xalçaya xanın tamah salmasından sonra tapır. Xan əsərdə zülmün, istismarın simvoludur. Ona qarşı duran isə hüquqsuz kəndlilərdir. Xan özünün geniş imtiyazlarından istiadə edərək istədiyi adamı döydürtdürür. Eloğlunun atası Polad da onun əmri ilə döyülür. A.Şaiq bir sənətkar kimi bu zülmə biganə qala bilmir. Odur ki, bu haqsızlığa Eloğlu obrazını yaratmaqla xalqın tərəfində dayandığını bir daha göstərir.

Yoxsulların həyatı A.Şaiqin yaradıcılığında əsas mövzulardan biri olmuşdur. Müəllif bu xətti «Eloğlu» pyesində də davam etdirmişdir. Başqa dramlarında olduğu kimi, bu pyesdə də obrazın dramaturq tərəfindən təqdimi sinfi ziddiyyətlər fonundadır. Müəllif folklordan geniş istifadə etməklə qəhrəmanı çətin vəziyyətlərə salır və qalib kimi çıxarır.

Eloğlu nağıl qəhrəmanı ilə müasir dövr qəhrəmanı arasında variasiya

edən obrazdır. O, öz kökünü xalq folklorundan götürür, amma milli qəhrəman səviyyəsinə qalxa bilmir. A.Şaiqin də folklor motivindən istifadə edərək onu qəhrəmana çevirməsi yazıçının öz qəhrəmanını el, oba qəhrəmanı kimi görmək arzusundan irəli gəlir. Pyesin sonunda Şaiq Eloğlunu fantastik obrazdan xalq qəhrəmanına çevirir. Bu cəhətdən Abdulla Şaiqin dram yaradıcılığının ilk qəhrəmanları folklor qəhrəmanları təsirini bağışlayır.

Abdulla Şaiqin «Vətən» pyesi də xalqın azadlq və azad yaşamaq uğrunda mübarizəsinə həsr olunmuş, bir sözlə, faşizmlə mübarizə ərəfəsində yazılmışdır. B.Nəbiyev «Vətən» pyesinin ideya əsasını Böyük Vətən müharibəsində xalqımızın qəhrəmanlıq şücaətlərinin təşkil etdiyini qeyd edir və yazır ki, «Vətən» pyesi (1941) Azərbaycan folklorunun qəhrəmanlıq motivləri əsasında yazılmış qiymətli əsərlərdən biridir. Dramaturq maraqlı bədii vasitələrlə müharibə dövrünün səciyyəvi konfliktini ifadə edən xeyirlə şər arasındakı mübarizəni canlandırmış, birincinin ikinci üzərində qələbəsini bədii cəhətdən əsaslandırmışdır.

Dramaturqun «Vətən» pyesinin də süjeti nağıl süjetidir. Pyesin qəhrəmanı Elman xalq qəhrəmanıdır. Bu əsərdə bir çox nağıl motivlərindən, məsələn, yalançı pəhləvan motivindən istifadə olunmuşdur. Dramaturq yalançı pəhləvan motivi vasitəsilə xalq nağılı süjetindən istifadə etmişdir. Pyesdə yalançı pəhləvan rolunda Lələş, mənfi obrazlar kimi Quzğun şah, Şahmar, Vəzir, Şimşad, İfritə cadu, divlər təsvir olunur.

Pyesdə Simurq quşu da mifoloji səciyyəlidir. «Məlik Məmməd» nağılında olduğu kimi, burada da Simurq quşu onun balalarını əjdahadan xilas edən Elmanı yaşadığı dünyaya gətirir. Hətta Şimşad div Elmanı qayadan atanda Simurq quşu onu qanadlarına alıb xilas edir. Bilici babanın verdiyi möcüzəli qılınc da sehrli vasitədir. O, qəhrəmanın əlində daha kəsərlidir. Çünki bu qılınc elin yağılardan xilas olmasında istifadə olunur.

A.Şaiqin dram yaradıcılığının ilk illərində yazdığı pyeslərdən biri də «Aydoğdu» əsəridir. Bu əsərdə türk mifoloji düşüncəsinin ən əski çağlarının tanrıçılıq görüşləri əks olunmuşdur. Əsərin mövzusu isə nağıl motivindən alınmışdır. «Dad Xanpərinin əlindən» nağılının mövzusu daha geniş şəkildə verilərək, əski türk çağlarına aparılaraq qədim türk tanrısı Göytanrıya inam dövrünə həsr olunmuşdur. Əsər Qara xanın dövrünə həsr edilsə də, Qara xanın tarixi şəxsiyyət olması folklor şərtiliyində öz tarixiliyini itirmiş, əsərin mövzusu başdan-başa zamansız, məkansız folklor mühitində nağıl süjetini əks etdirməkdədir. Pyesin qəhrəmanının adı Aydoğdudur. Bu ad göyə sitayişin simvolu kimi xarakterizə oluna bilər. A.Şaiq mifologiyanı bilən bir sənətkar kimi Ay ataya, Günəş anaya olan sitayişi bu əsərdə Ülkər xanımın dilindən verir.



Bu pyes uşaqların dünyagörüşünə təsir etmək, onları folklorun köməyi ilə tərbiyə etmək üçün yazılmış bədii əsərdir.

A.Şaiq «Yazıya pozu yoxdur!» pyesində də problemi uşaqların dünyagörüşünə uyğun olaraq həll etmişdir. Bu pyesdən Abdulla Şaiqin türkçü olması yaratdığı obrazın – qəzavü-qədər mələyinin dilindən qəhrəmanı Basyata söylənilir. Bu əsər «Kitabi-Dədə Qorqud» dastanındakı Təpəgöz və Basatla bağlı boyun süjetindən götürülmüşdür. A.Şaiq yaradıcı surətdə Təpəgözü yeddibaşlı div, Basatı isə Basyat şəklində bu əsərdə təqdim etmişdir. Yeddibaşlı divin əlində əsir olan Dünya gözəli isə Oğuz dünyasının qadın formasında təsvir olunmuş bədii obrazıdır. «Kitabi-Dədə Qorqud» dastanından fərqli olaraq A.Şaiq mövzunu daha da mifolojiləşdirir.

A.Şaiqin dram yaradıcılığında xüsusi çəkisi olan pyeslərdən biri də «Bir saat xəlifəlik» əsəridir. Bu pyesin mövzusu «Min bir gecə» nağıllarından götürülmüşdür. Pyesin əsas iştirakçıları Malik ibn Səid, anası Səkinə, bacısı Nailə, yoldaşları Faxir və Yasir, qonşu oğlan Xalid, Bəhlul Danəndə, Harunərrəşid, Vəzir, Əbu Təvvab, Əbu Məqsud və başqalarıdır. Malik, Yasir və Faxir faydalı işlə məşğul olmurlar, vaxtlarını qumar oynamaqla keçirirlər. Burada «müvəqqəti şah» motivindən istifadə olunmuşdur. Folklorda bu motivdən padşahlar məcburiyyət üzündən istifadə edirlər. Ancaq dramaturq bu motivin şəkli xüsusiyyətini dəyişərək onun Harunərrəşidin öz arzusu ilə baş verdiyini qələmə alır. Abdulla Şaiq onun bu sərsəm hökmdarlığına əks olaraq Malikin arzusunu qoyur. Həm Malik, həm də Harunərrəşid eyni sərxoş həyatı keçirirlər.

Birinci fəslin ikinci yarımfəsli «**A.Şaiqin dramaturgiyasının ideya-bədii xüsusiyyətləri**» adlanır. A, Şaiqin dramaturgiyasının ideya-bədii xüsusiyyətlərinin qaynaqları olduqca çoxdur. Onun dramlarnın qaynaqlandığı ikinci mənbə yaradıcılığının ilk dövrlərindəki romantik duyğularıdır. Romantizm A.Şaiq yaradıcılığının ən əsas ideya mənbəyidir. O, sonrakı dövr yaradıcılığında romantizmdən uzaqlaşsa da, bu ədəbi cərəyan öz təsirini onun dramaturgiyasına göstərməkdə idi. Romantizm məhdud bir cərəyan idi, həyatda və yaradıcılıqda öz daşıyıcılarına davamlı yol göstərə bilmirdi. Ədəbi əsərlərdə qəhrəmanlar çıxış yollarını mübarizənin fantastik şəkildə dərkində, insan idrakının duyğularının fövqündə axtarırdı, bir sözlə, reallıqdan kənar insan xəyallarının həqiqət axtarışında tapırdılar. A.Şaiqin romantizmi onun dramlarına da təsir etməkdə idi. Biz bu xüsusiyyəti Şaiq dramlarının folklorizmində, həm də dramatizmində görürük. Bütövlükdə götürdükdə, bu, Şaiqin özünün də dünyabaxışıdır. Biz onun dram yaradıcılığında üç xüsusiyyəti aşkar edə bilirik: 1. A.Şaiq və folklor; 2. A.Şair və romantizm; 3. A.Şaiq və realizm. Biz Şaiq yaradıcılığındakı birinci mərhələnin xüsusiyyətindən

danışdıq. Şaiq və folklor yaradıcılığı, şifahi söz ənənəsi onun lap uşaqlıq dövrlərindən başlayır. Folklor motivlərinin yaradıcılığında kök salması yaşadığı mühitin təsiri idi. O, uşaqlıqdan nağılların, əfsanələrin, bayatıların, atalar sözlərinin və s. əhatəsində idi. Özü də bu folklorun bilicisinə çevrilmişdi. Hansı motivin hansı nağılda işlənməsini gözəl bilirdi və həmin motivin, nağılın əsasında bədii əsəri çətinlik çəkmədən yaza bilirdi. Sonradan həyatının ikinci dövründə, Bakıda yaşadığı çağlarda romantik əhval-ruhiyyəli şəxsiyyətlərin təsiri altına düşmüşdü. Romantizm onun folklor duyğularına tam uyğun gəlirdi. Nağıllarda da proseslər romantik şəkildə insan xəyallarının qanadlarında uçurdu. Nağıllardakı real həyat həqiqəti xülyalar şəklində oxucuya çatdırılırdı. Romantik xəyallar nağıllardan süzülərək ədəbi materiala daxil olurdu. Biz Şaiqin dram yaradıcılığındakı romantizmin ideya-bədii kökləninin bazasını onun folklor dünyagörüşündə tapırıq. Ona görə də onun nağılvari pyeslərində hadisələrin sonu folklor romantizmi ilə tamamlanır. A.Şaiqin folklor romantizmi onun o biri dramlarında həmin romantizmə gəlib çıxmasına kömək etmişdir. A.Şaiqin sırf romantik səciyyəli bir neçə pyesi vardır. Bunlar «Şair və qadın», «Kimdir haqlı», «İdeal və İnsanlıq», «Gözəl bahar», «Həqiqətə doğru», «Qafqaz çiçəyi» və s. əsərləridir.

A.Şaiqin dram yaradıcılığında romantizm probleminin araşdırılmasının əhəmiyyəti bir çox məsələlərin üzərinə işıq salır. A.Şaiq romantik sənətkardır, yoxsa realist mövqeli dramaturq və ya şairdir? Bu suallar da A.Şaiqin dram yaradıcılığını məhz bu mövqedən öyrənməyi zəruri edir. Onu da qeyd edək ki, A.Şaiqin romantik duyğularla süslənmiş əsərləri həm də onun lirikası ilə bilavasitə bağlıdır. Onun lirik-dramatik dramlarının bir neçəsinin qısa məzmununun təhlilinə keçək. «Şair və qadın» ilk romantik pyes kimi Şaiqin yaradıcılığında xüsusi yer tutur. A.Şaiqin romantik xəyallarını əks etdirən pyes kimi «Şair və qadın» əsəri dramaturqa lirik hisslərini deməyə imkan vermişdir.

Abdulla Şaiqin romantikasında məhəbbət hər cür çətinliyə qalib gəlir. Şaiqin yaratdığı bütün obrazların əhval-ruhiyyəsində romantika onun həm idealı, arzularının məskəni, həm də duyğularının, lirik hisslərinin mənbəyidir. Şaiqin qəhrəmanlarının hamısı bu romantikanın hesabına yenilməz olurlar. Romantika düşmənlə mübarizədə onların silahına çevrilir. Şaiqin «Qafqaz çiçəyi» pyesində yaratdığı Zəhra obrazı da romantik düşüncəli, sevgisində sərhəd tanımayan dağlı qızıdır.

Əsərdən əsərə Abdulla Şaiqin romantikası öz məzmununu dəyişir. Əgər «Qafqaz çiçəyi»ndə romantika tək bir qıza məxsusdursa, «İdeal və İnsanlıq» pyesində bu romantikanı bütün əsər boyu izləyə bilirik. Bu əsər daha çox fəlsəfi mahiyyətlidir. Burada insanların daxili aləminə xas olan keyfiyyətlər antropomorflaşdırılaraq insan kimi təsvir olunmuşdur.



Abdulla Şaiqin romantikasını qüvvətləndirən əsas ideya silahı onun realizmidir. Biz onun bütün romantik əsərlərində də realizm ünsürlərinin şahidi oluruq. Bu əsərlər həyatı əks etdirdiyindən orada realizm romantizmin alt qatında gizlənmiş olur. «Kimdir haqlı» pyesində kənd həyatı təsvir olunur. A.Şaiq kənd həyatını gözəl bilən sənətkardır. Pyesin dramatizmi obrazların səciyyəsində açılır. Rüstəm-Gülsənəm dialoqunda A.Şaiq qadının da zəhmətini qiymətləndirir. Məişət mövzusuna həsr edilən bu komediya yazıçı təxəyyülünün məhsulu olsa da, o qədər də dərin problem deyildir. Əsərin sonluğundan da görünür ki, dramaturq bu problemi çox asanlıqla həll edir. Əsərdə konflikt yoxdur. Buna görə də komediyada mənfi tipajlar yoxdur. Komediya məişət dramı olduğundan hadisələrin inkişafı da sadə şəkildə qurulmuşdur. Pərdədən pərdəyə hadisələr gərginləşdirilmir. Hadisələr birxətli inkişaf edir. Bu, dramaturqun yaradıcılığının ilk dövrlərinə xas olan, Şaiqin ilk qələm təcrübələrindən sayılan bir əsərdir. Göründüyü kimi, Şaiq pyesdə problemi kəskinliklə irəli sürmür. Pyesin dili də sadədir, dramaturq xalq ibarələrindən, atalar sözlərindən, zərb-məsəllərdən, bayatılardan geniş istifadə edərək yüksək sənət əsəri yaratmağa nail olmuşdur. Bu da əsərin oxunaqlı olmasına səbəb olur. Dramaturqun obrazyaratma xüsusiyyəti, obrazları yaşama keyfiyyəti əsərin güclü bədiyyata malik olmasını şərtləndirir.

Əsərdə romantika obrazların həyati düşüncələrində hiss olunur. Lakin bu romantika ağır zəhmətdən sonra kənd həyatını gözəlləşdirən duyğulardır. A.Şaiq real kənd həyatını təsvir etdiyindən realist səhnələrə üstünlük vermiş, romantizmə isə qəhrəmanlarının dilində, onların arzularında yer vermişdir.

A.Şaiqin dram yaradıcılığının ilkin mərhələsi, əsasən, uşaqlar üçün, onların təhsili və tərbiyəsi üçün lazım idisə, yaradıcılığının ikinci dövrü sovet hakimiyyətinə keçidin tərənnümü məsələlərinə həsr olunmuşdur. Biz bu dövrün yazıçılarının yaradıcılığını xarakterizə edərkən qəhrəmanların şəxsi həyatındakı fərqliliyin səbəbini onların məhəbbətinin xarakterinin inqilabi romantikanın təsiri ilə dəyişməsində görürük. Dövrün belə əsərlərinə misal kimi A.Şaiqin «İldırım» pyesini göstərə bilərik. İnqilab əhval-ruhiyyəsi ilə yazılmış bu əsərin əsas qayəsi zülm edənlərə qarşı mübarizə, zülmkarları aradan qaldırmaq, azadlığı əldə etməkdir.

Əsərin qəhrəmanı İldırımdır. Çar istibdadına qarşı mübarizədə İldırım kimi obrazların rolu zülm və istismarçı siniflərə qarşı mübarizədə çox aydın görünür. İldırım siyasi cəhətdən də yetkinləşmişdir. O başa düşür ki, zülmü aradan qaldırmaq üçün bu müftəxor mülkədar sinfini ləğv etmək lazımdır.

Əsərin məzmunu kənd həyatından götürülmüşdür. Birinci Dünya müharibəsi ərəfəsində ölkədə siyasi vəziyyətin kəskinləşməsi və onun milli ucqarlara təsiri kəndlərdə də hiss olunmuşdur. Belə bir ictimai vəziyyəti A.Şaiq

qələmə almış, inqilab əhval-ruhiyyəsini tərənnüm etmişdir.

Dissertasiyanın ikinci fəsli **«Klassik yazıçılarımızın ədəbi irsinin dramatik təcəssümü»** məsələlərinə həsr edilmişdir. Bu fəsildə «**A.Şaiqin dram yaradıcılığında Nizami süjetləri**» mövzusu birinci yarımfəsildə işıqlandırılır.

Nizami Gəncəvi Azərbaycan poeziyasında özünəməxsus yeri olan böyük şairdir. Nizami elə böyük şairdir ki, onun yaradıcılığına zaman-zaman Şərqin böyük sənətkarları müraciət etmişlər. Nizami Gəncəvinin ən böyük ideyası sağlığında ədalətli hökmdar görmək idi. Şair bu arzusunu həyatda görməsə də, öz poemalarında dönə-dönə həyata keçirmişdir. Ona görə də Nizaminin əsərlərində biz çoxlu ədalətli hökmdar obrazlarına rast gəlirik. Şairin ikinci böyük idealı ağıllı qadın obrazlarını əsərlərində görməkdir. Biz Nizaminin əsərlərində ağıllı qadın obrazlarının yaradıldığını görürük.

Nizami mövzuları bütün dövrlərdə ədəbiyyatın əsas aparıcı mövzularının inkişafına kömək etmişdir. Nizami əsərlərini tərcümə edən hər bir şair və tərcüməçi onun təsir dairəsindən çıxa bilmir, yeni ədəbi mühitdə bu mövzulara təkrar yenidən qayıtmaq imkanında olurlar. A.Şaiqin də Nizami mövzularına müraciət etmək meyli dahi sənətkarın əsərlərini tərcümə işindən sonra yaranmışdır. Nizami poeziyasının təsiri güclü olduğundan A.Şaiq onun cazibəsindən çıxa bilməmiş, onun qəhrəmanlarını öz yaradıcılığına gətirmişdi. A.Şaiq Nizami qəhrəmanlarını olduğu kimi götürməmiş, onları yeni ampluadada, yeni tarixi dövrdə oxucularına çatdırmışdır. Biz bu obrazların – Nüşabənin, İsgəndərin, Fitnənin, Bəhramın və başqalarının xarakterlərinin açımını A.Şaiqin pyeslərində Azərbaycan milli ruhuna uyğun şəkildə görürük. Nizami mövzuları A.Şaiqin həm nəzm yaradıcılığında, həm də dramaturgiyasında özünə yer almışdır. Bunlardan Sultan Səncər, Bəhram, Nüşabə, İsgəndər, Fitnə A.Şaiqin yaradıcılığında özünəməxsus şəkildə işlənmişdir.

Abdulla Şaiqin mövzularının bir hissəsisini isə tarixi dramlar təşkil edir. Belə əsərlərdən biri də «Nüşabə» pyesidir. Pyesin mövzusu Nizami Gəncəvinin «İsgəndərnamə» poemasından alınmış, onun motivləri əsasında yazılmışdır. Daha konkret desək, A.Şaiqin «Nüşabə» pyesinin mövzusu həmin poemanın Nüşabə ilə İsgəndərin görüşünə həsr olunan hissəsindən götürülmüşdür. Nüşabə obrazı A.Şaiqin ideallarına uyğun gələn qəhrəman qadın obrazıdır. O, Nizamidən fərqli olaraq Nüşabəni öz vətəni uğrunda döyüşə bilən, sevgisi uğrunda mübarizə aparan hökmdar kimi təsvir edir. Biz əsərdə A.Şaiqin bədii priyomları ilə üzbəüz oluruq. A.Şaiqin bədii priyomları əsərə daxil edilən qəhrəmanların funksiyaları ilə bağlıdır. Nizamidə Nüşabə ilə İsgəndərin görüşü birbaşa təqdim olunur. İsgəndər özü elçi kimi Nüşabənin sarayına gəlir. Ancaq



A.Şaiq bu görüşə əsərdə şərait yaradır.

Abdulla Şaiqin «Nüşabə» pyesində Bərdə Azərbaycanın simvoludur. A.Şaiq mövzunu genişləndirərək təkcə Bərdəni deyil, Azərbaycanın taleyini, işğalçıdan xilas olmasını vətənin birliyində görür. Nizaminin əsərində tarixilik qorunmaqdadır. A.Şaiq isə mövzunu bəşəriləşdirərək tarixi gerçəkliyi orta əsrlər Azərbaycan həyatına bağlamışdır. Əsərdəki xan surətlərinin paralel olaraq qədim dövr yunan həyatı və tarixi şəxsiyyətləri ilə birgə təsvir olunması mövzuya tarixi və müasirlik donu geydirir.

Nüşabə sevgisinə sadiq bir insandır. O, sevgilisi Salura olan məhəbbətini qoruyur. Şəki xanı Tərxan və Gəncə xanı Gəray xana öz keçmiş sevgisində dəyanətli olduğunu başa salır. Nüşabəyə sahib olmaq üstündə xanlar birləşmək istəyir. Nüşabə ağıllı hömdardır. O, ağıllı hərəkətləri ilə onu sevənləri özündən təcrid edir.

Həm Nizami poemasının, həm də Şaiqin «Nüşabə» pyesinin ən kulminasiyalı nöqtəsi Nüşabə ilə İsgəndərin qarşılaşmasıdır. Nizami və Abdulla Şaiq folklorda tez-tez rast gəldiyimiz elçilik motivindən istifadə edərək Nüşabəni və İsgəndəri görüşdürürlər. A.Şaiq İsgəndəri qürurlu bir hökmdar kimi təsvir edir.

Şərq dünyagörüşündə padşahların, xaqanların vəzirləri ağıllı, iş bilən və filosof olurlar. A.Şaiq bu postulatdan istifadə edərək 3 ağıllı vəzir obrazı yaratmışdır. Ərəstu İsgəndərin, Saltik Tərxanın, Almaz Nüşabənin vəziri kimi pyesdə göstərilir. Hər üç vəzir öz işinin öhdəsindən məharətlə gəlir. Ərəstu öz ağıllı məsləhətləri ilə İsgəndəri çıxılmaz vəziyyətdən çıxarmağa çalışır.

«Fitnə» pyesi də A.Şaiqin dram yaradıcılığında xüsusi yer tutur. A.Şaiq «Nüşabə» dramından sonra 1946-cı ildə «Fitnə» pyesini yazdı. Bu əsərin də mövzusu Nizami poeziyasından qaynaqlanır. «Fitnə» pyesinin də mövzusu Nizami Gəncəvinin «Yeddi gözəl» poemasından alınmışdır. «Fitnə» pyesi Abdulla Şaiqin bədii təxəyyülünə məxsus bir əsərdir. Nizamidə Bəhram -əvvəl eyş-işrətlə məşğul olan mənfi qəhrəman, sonra dəyişərək müsbət obraza çevrilir. A.Şaiq də Bəhramı eyni müstəvidə təsvir edir. Bəhram qayğısız hökmdardır. Məşğuliyyəti ov etmək, şərab içməkdir. A.Şaiq «Yeddi gözəl» poemasının Bəhramın Fitnə ilə bağlı hissəsini pyesdə qabartmışdır.

A.Şaiq Fitnəni inkişafda göstərmək üçün əsərə məhəbbət xətti də əlavə edir. Fitnəni Bəhram da daxilən sevir, Bəxtiyar da Fitnənin sevgisini qazanmağa çalışr. Bu məhəbbət üçbucağında Fitnənin sevgisini A.Şaiq Bəxtiyara yönəldir. Şaiq Bəxtiyar obrazını öz əsərinə daxil etməklə Fitnənin daxili aləmini açmağa çalışmışdır. A.Şaiqin Bəxtiyar obrazı sevgidə Bəhramı üstələyir.

Bu fəslin ikinci yarımfəsli «**M.F.Axundov və S.S.Axundovun Şaiq**

**dramaturgiyasına təsiri**»nə həsr edilmişdir. A.Şaiq N.Gəncəvi, M.F.Axundov və S.S.Axundov yaradıcılığına üz tutmuş, onların əsərlərini milli ruha uyğun şəkildə yenidən işləmişdir.

Abdulla Şaiqin dram yaradıcılığına təsir edən yazıçılar və tənqidçilər çox olmuşdur. Bu istiqamətdə A.Şaiq və F.Köçərli, A.Şaiq və S.Hüseyn, A.Şaiq və M.F.Axundov, A.Şaiq və S.S.Axundov, A.Şaiq və A.Səhhət, A.Şaiq və Sabir yaradıcılıqlarının bir-birinə təsiri ədəbiyyatşünaslığımızın mühüm problemi olmuşdur. A.Şaiqin dramaturgiyasından danışanda F.Köçərlinin, M.F.Axundovun, S.S.Axundovun və başqalarının yaradıcılıqlarının təsir imkanları həmişə diqqəti cəlb etmişdir. Çünki A.Şaiqin dramaturgiyasındakı obrazların mənşəyi məhz onların ədəbi yaradıcılığına bağlıdır. Deməli, A.Şaiqin dram yaradıcılığına nəzər yetirərkən iki cəhətə diqqət yetirmək lazımdır:

1. A.Şaiqin dram yaradıcılığına tənqidi münasibət;
2. A.Şaiqin dram yaradıcılığına ədəbi təsir.

Abdulla Şaiqin dram yaradıcılığına tənqidi münasibət bəsləyən, onun dram yaradıcılığına təsir edən ədəbi şəxsiyyətlər çox olmuşdur. Bunlardan ən birincisi böyük ədəbiyyatşünas F.Köçərlidir. Xüsusilə onun A.Şaiqin «Gözəl bahar», «Şair və Qadın», «İdeal və İnsanlıq» dramları haqqında dedikləri çox qiymətlidir.

S.S.Axundovun yaradıcılığı A.Şaiqə çox təsir etdiyindən onun S.S.Axundovdan öyrəndikləri diqqət çəkir. S.S.Axundovun yaradıcılıq təcrübəsi çox olduğundan ondan nəyisə öyrənmək Şaiq üçün həmişə aktual olmuşdur. S.S.Axundov yaradıcılığında A.Şaiqi cəlb edən nə olmuşdur? İlk növbədə, bədii dilin sadəliyi və təsvir vasitələrinin gözəlliyi Şaiqi özünə cəlb etmişdir. S.S.Axundovun süjetqurma məharəti, obrazların daxili aləminə enmək bacarığı şaiq üçün həmişə maraqlı olmuşdur.

M.F.Axundovun və S.S.Axundovun yaradıcılığının Abdulla Şaiq üçün cəzbedici olması xüsusilə onun iki pyesində rastlaşdığımız bədii təsirlənmə ilə əlamətdardır. Bildiyimiz kimi, M.F.Axundov «Aldanmış kəvakib» hekayəsi ilə realist nəsrin əsasını qoymuşdur. Bu əsərin ədəbi təsir qüvvəsi A.Şaiq dramaturgiyasında eyni mövzudan bəhs edən «Aldanmış ulduzlar» pyesinin yazılmasına səbəb olmuşdur.

Azərbaycan ədəbiyyatı tarixində yeni bir yol açan M.F.Axundovun yaradıcılığını tədqiq edən A.Şaiq onun yaradıcılığının xüsusiyyətlərini aşkara çıxarır, onu keçmiş sxolastik ədəbiyyat nümayəndələrindən tamamilə fərqli olan, real həyatdan alınmış səhnələri məharətlə təsvir edən yazıçı kimi qiymətləndirirdi.

M.F.Axundovdan bəhrələnən dramaturq öz yaradıcılığında da bu



təsirdən faydalanmış və «Aldanmış ulduzlar» və «Bir saatlıq xəlifəlik» pyeslərini yazmışdı.

Abdulla Şaiqin dram yaradıcılığındakı realizm demokratik düşüncədən keçərək sabit şəkil alır. Abdulla Şaiqin realizmi, qəhrəmanları təsvir etmə məharəti bilavasitə həmin sənətkarların ədəbi təcrübəsinə və özünün dünyagörüşünə dayanır. Belə sənətkarların biri də S.S.Axundovdur. Ə.Məmmədov «Qorxulu nağıllar» içərisində ən kamil hekayənin «Qaraca qız» olduğunu yazır və qeyd edir ki, bu əsər uşaqlara humanizm, dostluq və yoldaşlıq hissi aşılayır.

S.S.Axundov ilə Abdulla Şaiqi dünyagörüşləri və yaradıcılıqları da yaxınlaşdırırdı. O, Süleyman Saninin «Qorxulu nağıllar» adlı uşaq hekayələrini çox xoşlayırdı. S.S.Axundovla A.Şaiqi birləşdirən yaradıcılıq metodu realizm ədəbi üslubudur.

Abdulla Şaiqin dram yaradıcılığında hekayə motivlərindən istifadə etmək meyli də güclüdür. «Qaraca qız» pyesinin mövzusunu A.Şaiq S.S.Axundovun eyniadlı hekayəsindən götürmüşdür. Dramaturq hekayədəki süjet xəttini daha da inkişaf etdirərək əsəri dolğun şəkildə başqa janrda yenidən işləmişdir. O, pyesə yeni obrazlar daxil etmiş, bununla da pyesin süjet xəttini genişləndirmiş, hekayənin süjet xəttini və ideyasını saxlaya bilmişdir.

Dissertasiyanın üçüncü fəsli ədəbiyyatşünaslıq üçün mühüm sayılan bir problemə həsr olunmuşdur. Biz bu fəsildə A.Şaiqi ədəbiyyata yenilik gətirən bir sənətkar kimi görürük. Buna görə də fəsil in adı «**A.Şaiqin yeniləşən dramaturgiyasında yeni süjet və xarakter problemi**»dir.

Abdulla Şaiq dövrün nəbzini tutan sənətkardır. Biz onun dram yaradıcılığına fikir verəndə 3 formada yaradıcılıq mərhələsinin olduğunu görürük. Belə demək mümkünsə, onun dram yaradıcılığının birinci mərhələsini uşaqlar üçün yazılmış dram əsərləri təşkil edir. Bunlar əsasən uşaq zövqünə və düşüncəsinə uyğunlaşdırılaraq folklordan istifadə edilməklə yazılmış pyeslərdir. A.Şaiqin dram yaradıcılığının ikinci mərhələsi öz dramaturgiyasını təkmilləşdirmə dövrüdür. Bu mərhələdə o, özünə ustad saydığı sənətkarların əsərlərindən faydalanır, onların əsərlərini pyes formasına salmağa çalışmışdır. A.Şaiqin dramaturgiyasının üçüncü mərhələsini isə püxtələşdiyi dövründə yazdığı pyeslər təşkil edir. Yəni o, bu dövrdə dramaturgiyanın tələblərinə uyğun olaraq həyat müşahidələri aparır, yeni dövrün tələblərini öyrənir, yeni obrazlar axtarır, yeni süjetlər üzərində çalışır. Dediyimiz bu mərhələ A.Şaiqin yaradıcılığında xüsusi əhəmiyyət daşıyan həm mürəkkəb, həm də intellektual olaraq qiymətləndirilə bilər. Bu mərhələnin mürəkkəbliyi ondadır ki, yeni ictimai quruluş bir rejim olaraq yaradıcı insanların yaradıcılığına təsir edir, onlara mövzuları diktə edir, müəllifə seçim etməyə imkan qalmır.

İntellektuallıq isə hər bir sənətkarın özündən asılı olan problemdir. Yazıçı harada yaşayır-yaşasın, hansı mövzunu qələmə alır-alsın, intellektual səviyyəsi ilə dövrün mürəkkəbliyini öz yaradıcılığında aradan qaldırır. Bu zaman dövrün mürəkkəbliyi onun intellektual səviyyəsinə tabe olur, dramaturq da yeni dövrə uyğun yeni obrazlar yaradaraq həm özünün şəxsiyyətini qoruyur, həm də dramaturgiyanı inkişaf etdirir.

Abdulla Şaiq zamanından üstün dramaturqdur. O hiss edirdi ki, romantika həyat hadisələrini əks etdirməkdə acizdir. Real həyat hadisələrini ancaq realizm və realist sənətkar dərk edə bilər və onu bədii sənətdə üfüqlərə qaldıra bilər. Bir də Şaiq başa düşmüşdü ki, əsl sənətkarın oxucusu olmalıdır. Odur ki, A.Şaiq öz oxucusunu tapmaq üçün əvvəlcə uşaq əsərləri yazdı. Onu uşaqlar və gənclər sevdi. Şaiqin yaradıcılığının böyük hissəsini xalq dramaturgiyası təşkil etdi. Yəni uşaq dramaturgiyası adlandırdığımız birinci mərhələdə Şaiqin oxucu auditoriyasını uşaqlar və gənclər təşkil edirdi. Xalq dramaturgiyasında isə mövzu genişliyi və auditoriyanın böyüklüyü ön planda idi. Xalq dramaturgiyasının özü Şaiq yaradıcılığında geniş vüsətli idi. A.Şaiqdə seçim etmək imkanı, mövzuları öyrənmək problemi birinci dərəcəli olmuşdu. Onun yaradıcılığındakı yeni mövzuları qruplaşdırsaq, aşağıdakı vəzifələrin həllini görə bilərik: Vətənpərvərlik, savadsızlıq, təhsil, yeni kadr hazırlığı, vətəni sevmək, vətəni müdafiə, klassik obrazların dramaturgiyaya gətirilməsi, yeni cəmiyyət uğrunda mübarizə, adət-ənənələrə qayğı və hörmət, mədəni inqilab, nailiyyətlərin tərənnümü, vətəndaşlıq vəzifəsinin önə çəkilməsi, obraz və şəxsiyyət sırasında şəxsiyyətin rolunun önə çəkilməsi, ölkədəki pedaqoji kadrların nümayəndələrini obraza çevirmək, xalq və vətən yolunda çalışmaq, əməkçi insanların ədəbiyyata gətirilməsi, ana obrazının ədəbiyyata gətirilməsi, qadın azadlığı, sevgi azadlığı, vətən azadlığı və s. bütün bunlar A.Şaiqin yeni formalı dramaturgiyasını xarakterizə edən mövzular olmuşdur.

A.Şaiqin yenilşən dramaturgiyasına daxil olan pyesləri ədəbi qəhrəmanların xalq içindən seçilməsi ilə fərqlənir. A.Şaiq bu əsərlərində xalq nümayəndələrini ədəbi yaradıcılığına gətirmiş, onların sevə-sevə obrazlarını yaratmışdır. Bu obrazların içində zəif olanları da, qüvvətli çıxanları da vardır. Biz bu obrazları bir-biri ilə müqayisə etsək, yeni dövrün başlanğıcında yaradılmış savadsız Dursun («Çoban» pyesi) obrazı ilə Kamil müəllimi («Xasay» pyesi) arasındakı fərqləri görə bilərik.

A.Şaiqin yeni şəraitdə pyes yaradıcılığı əməkçi insan obrazlarının yaradılması ilə əlamətdardır. Qəhrəmanların dramatik inkişafını, əməkçi insan surətlərinin dinamikasını təyin etmək üçün «Çoban» pyesi A.Şaiqin yeniləşən yaradıcılığını izləməyə imkan yaradır. Çoban Dursun əməkçi obrazdır. Onun savadsızlığının səbəbini göstərməklə Şaiq yeni savadlı obrazlar yaratmaq



təcrübəsi əldə etmiş, fəal, müsbət obrazların yaradılmasına diqqət artırmışdır.

Abdulla Şaiq mövzudan mövzuya keçəndə də öz amalından dönmür, qəhrəmanlarını da həmişə mübariz təsvir edirdi. Bu mübarizliyi onun bütün qəhrəmanlarında görürük. «Tələbə həyatı» pyesində də yaratdığı Saleh obrazı Abdulla Şaiqin arzularını həyata keçirən qəhrəman tipidir.

A.Şaiq pyesdə bir-birindən fərqli obrazlar yaratmışdır. Saleh və Qulubəy bir-birinə zidd olan, fərqli obrazlardır. Hacı Mürsəl və Gövhər xanım da bir-birilərindən fərqlənirlər.

A.Şaiq insan psixologiyasını yaxşı bilən sənətkardır. Ona görə də onun obrazları psixoloji cəhətdən dolğun obrazlardır. A.Şaiq «Xasay» pyesində də obrazların psixologiyasını ən dəqiq detallarla açmağa çalışır. «Xasay» pyesində Kamil müəllim obrazı A.Şaiqin özüdür, yaxud amalıdır. Pyesdə Kamil – Rəcəb qarşıdurması köhnəliklə yeniliyin, tərəqqinin mübarizəsi kimi verilir.

«Xasay» pyesindəki Xasay və Kamil müəllim obrazlarından sonra A.Şaiqin müsbət qəhrəman və hami-tərbiyəçi obrazlar yaratmaq vəzifəsi «Ana» pyesində də öz həllini tapır. Onun yaratdığı ana obrazı əvvəlki əsərlərindəki qadın surətlərindən xeyli fərqlənir. Əvvəlki əsərlərdə qadın surətləri öz hüquqları uğrunda mübarizə apara bilirlərsə, «Ana» pyesindəki Xanımana obrazı bir qadın kimi nə övladlarının tərbiyəsi ilə məşğul ola bilir, nə də öz hüququ uğrunda fəal mübarizə aparır. Xanımana bir ana kimi ziddiyyətli obrazdır. O, bir tərəfdən əvvəlki ərinin qatilinə ərə getmiş, digər tərəfdən ikinci ərindən şikayətlənir. Övladları onu atalarının ölümündə günahlandırırlar.

«Xasay» pyesi ilə «Ana» pyesini yeni vətəndaş yetişdirmək ideyası birləşdirir. Azay obrazı Xasayın yeni ictimai mühitdə təkmilləşmiş davamçısıdır. Bu pyeslərin təhlili göstərir ki, yeni tarixi şəraitdə süjet, obraz, xarakter yaratmaq A.Şaiqin dram yaradıcılığında həmişə nəzərə alınmış və aktuallıq qazanmışdır. A.Şaiqin o biri qəhrəmanları da mənəvi təkamül yolunu keçərək milli obraz səviyyəsində tərənnüm olunurlar. Əsərdən əsərə öz bədii yaradıcılıq təcrübəsini artıran A.Şaiq yeni şəraitdə mövzunun tələbini nəzərə almaqla yeni obrazlar, yeni xarakterlər yaratmaqla milli ədəbiyyatın yeni zirvəsinə ucalmışdır. Bütün bunlar göstərir ki, Abdulla Şaiq novator sənətkardır.

Dissertasiyanın **«Nəticə»** hissəsində A.Şaiqin dram yaradıcılığının təhlili zamanı əldə olunmuş nəticələr əsaslandırılmış, onun dramaturgiyasına baxışın dəyişilməsi ilə bağlı verilən yeni tələblərə uyğun olaraq əsas müddəalar irəli sürülmüşdür.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı məqalələrdə əks olunmuşdur**:

1. A.Şaiqin «Nüşabə» pyesində İsgəndər və Nüşabə surətləri // Dil və

Ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), Bakı, 2008, s. 128-130
2. A.Şaiqin «Fitnə» pyesində obraz və xarakter məsələləri // Bakı Universitetinin xəbərləri, humanitar seriya, 2009, №, s. 174-79
3. A.Şaiqin «Gözəl bahar» pyesində folklorizm // Folklorşünaslıq məsələləri (Elmi-nəzəri və ədəbi-bədii jurnal). Bakı: Elm və təhsil, 2009, s. 109-116
4. A.Şaiqin ilk dramları // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), Bakı, 2009, s. 112-114
5. A.Şaiqin dramlarında ədəbi qəhrəman problemi // Kültür Evreni, Türkiyə, 23 may 2009, s. 95-104
6. Abdulla Şaiqin dram əsərlərində folklor romantizmi // Bakı Universitetinin xəbərləri, humanitar seriya, 2010, № 2, s.
7. Сюжеты Низами Гянджеви в драматургии Абдуллы Шаига // Концептуальные проблемы литературы: художественная когнитивность, Академ центр Ростов-на Дону, 2014, s. 7-9.
8. Проблема литературного героя в драмах А.Шаига // //Мова и култура, Киевский национальный университет им. Т.Шевченко, № 2, Киев, 2015, с.



**Фидан Хамдулла кызы Агамалиева**

## ДРАМАТУРГИЯ АБДУЛЛЫ ШАИГА

### Резюме

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

В «Введении» традиционно обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость исследования, даются сведения о целях, задачах, методах, источниках исследования, об апробации и структуре диссертации.

В первой главе диссертации «Идейно-художественные источники драматургии А.Шаига» прослеживается связь тематики его первых драм с фольклорными мотивами. Эта связь объясняется отсутствием произведений для детей, быстрым восприятием детьми фольклорных мотивов, играющих важную роль в воспитании детей и в формировании их эстетического вкуса. В драматических произведениях, написанных для детей, А.Шаиг использует готовые сказочные сюжеты и различные сказочные мотивы (пьесы «Прекрасная весна», «Говорящая кукла», «Петух-мститель», «Сын народа», «Родина», «Халиф на час»). Эти пьесы, написанные на основе сказочных мотивов, и идейно, и содержательно направлены против социального зла.

Во второй главе «Сценическое воплощение литературного наследия азербайджанских классиков» речь идет не только о сценическом воплощении известных исторических пьес А.Шаига, но и о причинах их создания, психологии образов, об их типологических особенностях и т.д. В этом плане особый интерес представляют пьесы А.Шаига «Нушаба», «Фитне», посвященные поэмам Низами «Семь красавиц» и «Искендернаме». Другим идейным источником драматургии А.Шаига являются произведения М.Ф. Ахундова и С.С.Ахундова. Одна из пьес А.Шаига написана на основе рассказа С.С.Ахундова «Чернушка».

В третьей главе диссертации «Проблема новых сюжетов и характеров в драматургии А.Шаига» отмечается, что творчество А.Шаига обогатило азербайджанскую литературу того периода новыми сюжетами и образами. Обличая в своих пьесах невежество, изображая бедность как социальное зло, драматург выдвигает идеи просвещения, образования, духовного возрождения (пьесы «Студенческая жизнь», «Хасай»), играющие важную и решающую роль в жизни народа.

В «Заключении» обобщаются основные результаты и выводы исследования.

**Fidan Hamidulla gizi Agamaliyeva**

**THE PLAYS OF ABDULLA SHAIG**

## Summary

The dissertation consists of “Introduction”, three chapters, “Conclusion” and bibliography.

In “Introduction” are substantiated the urgency of subject, scientific novelty, theoretical and practical significance of the research, is given the information about the main purpose and tasks, methods, sources of the research, approbation and structure of the dissertation.

In the first chapter of the dissertation “The idea-artistic sources of the plays of A.Shaig” is traced the connection between his first dramas and folklore motives. This connection is explained by the absence of works for children, children `s quick perception of folklore motives that play an important role in upbringing of children and formation of their aesthetic taste.

In the plays written for children A.Shaig skillfully used different tale plots and motives (the plays: “The beautiful spring”, “The talking doll”, “The cook-avenger”, ”The people’s son”, “Motherland”, “The caliph for an hour”).

The ideas and content of these plays written on the basis of tale motives are against social evil.

The second chapter ”The stage incarnation of the Azerbaijani classics literary legacy” deals not only with the stage incarnation of A.Shaig`s famous historical plays but also with the reasons of their creation, psychology of characters, their typical peculiarities etc. From this standpoint A.Shaig`s plays “Nushaba”, ”Fitne” dedicated to Nizami`s poems “Seven beauties”, “Iskendername” are of great interest.

The other ideological source of A.Shaig`s plays are M.F.Akhundov`s and S.S.Akhundov`s works. One of A.Shaig`s play was written on the basis of S.S.Akhundov`story “The black girl”.

In the third chapter of the dissertation “The problem of new plots and characters in the plays of A.Shaig” it is emphasized that A.Shaig`s creation enriched the Azerbaijani literature of that period with the new plots, characters. When exposing ignorance and revealing poverty as the social evil the playwright brought up the ideas of enlightenment, education, spiritual revival (his plays “The Students’ life”, “Khasai”) that played an important and decisive role in people`s life.

In “Conclusion” are generalized the main principles and results of the research.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ФИДАН ХАМДУЛЛА кызы АГАМАЛИЕВА**

# ДРАМАТУРГИЯ АБДУЛЛА ШАИГА

**5706.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по филологии**

**БАКУ - 2015**